# Aİ və Fransanın regionda gərginliyin qalmasında maraqlı olduqları təsdiqini tapır



**"Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin Prezident İlham Əliyevə təbrik zəngi zamanı Brüsseldə növbəti üçtərəfli görüşlə bağlı razılıq alındıqdan sonra Azərbaycan sərhədçisinin yaralanması faktı xeyli suallar yaradır. Ümumiyyətlə, son vaxtlar şərti sərhəddə sakitliyin mövcudluğu vurğulanırdı və bu, danışıqların irəli aparılması üçün mühüm məqam kimi qiymətləndirilirdi. Lakin görünən odur ki, kimlərsə sülh prosesinin irəliləməsini, konkret olaraq elə Brüsseldə danışıqların aparılmasını istəmir. Deməli, sərhədçimizin snayperlə vurulması Azərbaycanı sevməyən qüvvələrin növbəti məqsədyönlü təxribatıdır. Amma sözsüz ki, Azərbaycan bu təxribatı cavabsız qoymadı".**

Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Sahib Alıyev deyib. Deputat bildirib ki, hadisənin Ermənistan silahlı qüvvələri tərəfindən qəsdən törədildiyi və vəziyyətin gərginləşməsinə xidmət etdiyi ortadadır: "Təxribatın Şarl Mişelin zəngindən sonra baş verməsi oxları qərbdəkilərə geosiyasi rəqib kimi yanaşanlara tuşlayır. Məsələyə diqqətlə baxdıqda aydın olur ki, bütün bu təxribatlar elə məhz qərbdəkilərin, ilk növbədə də Fransanın regionda gərginliyin qalmasında maraqlı olması nəticəsində baş verir.

"Sərhədçimiz yaralanan gün Avropa İttifaqı təmsilçiliyinin Ermənistandakı rəhbəri Maraqos Zəngəzurda idi. Orada Aİ missiyasının haylara dəstəyini nümayiş etdirmək üçün onun regiona yeridilməsindən dəm vururdu. Təbii ki, bu cür açıqlamalar, o cümlədən Fransa generalı da daxil olmaqla, Avropa İttifaqından gələn ayrı-ayrı ünsürlərin binoklla Azərbaycan mövqelərini seyr etmələri, kimin yanında yer aldıqlarını açıq şəkildə sərgiləmələri xəstə zehniyyətli revanşistləri bu cür insidentlərə həvəsləndirir", - deyə müsahibimiz əlavə edib.

Sahib Alıyev deyib ki, ermənilər əziləcəklərini, "dəmir yumruğ"un yenidən başlarına endiriləcəyini bilə-bilə təxribatlara yol verirlər. Təəccüblüsü odur ki, Avropa İttifaqı bir tərəfdən danışıqlara moderatorluq etmək istəyini ən yüksək səviyyədə sərgiləyir, digər tərəfdən isə onun missiyasının nəzarətində olan hissədə gərginlik yaradır.

Deputat yekunda qeyd edib ki, Avropa İttifaqının Azərbaycandakı səfirinin Xarici İşlər Nazirliyinə dəvət edilərək təmsil etdiyi qurumun missiyasının pozucu fəaliyyəti haqda xəbərdar edilməsi yerində atılmış addımdır. Ümumiyyətlə, Şarl Mişel regionda sülhün bərqərar olmasını istəyir və bu prosesə töhfə verməyə çalışırsa, onlar öz missiyalarını regiondan çıxarmalıdırlar.

*N.QAFARZADƏ,*
*"Azərbaycan"*

Azərbaycan.- 2024.- 14 fevral, № 33.- S.7.